# “Azərbaycanda Effektiv İşəgötürənlər Təşkilatı” adlı kursun təlimçisi haqqında məlumat (25/09/2018 - 28/09/2018)



**Xorxe İlinqvort**

*Professional təcrübəsi*

Ekvadorda anadan olub, Atlantada Xeorxias Texnologiya İnstitutundan sənaye mühəndisliyi ixtisasına yiyələnib və Kosta Rikada INCAE Biznes Məktəbində Agrosənaye İdarəetmə üzrə magistr diplomu əldə edib. O, Hollandiyanın CBI qurumu tərəfindən ixracatın təşviqi üzrə sertifikatlaşdırılmış məsləhətçisidir. 17 ildən artıqdır ki, O, bir ailə müəssisəsindəki su təsərrüfatı və tikinti sektorunda sahibkar olub.

Milli Balıqçılıq Palatası, Banan İxracatçılar Milli Assosiasiyası və Sənaye Palatasında yüksək icraçı vəzifələr tutub, həmçinin işəgötürən təşkilatlarda çalışmaqla uzunmüddətli iş təcrübəsi əldə edib.

2005-2006-cı illərdən başlayaraq dövlət sektorunda əmək fəaliyyətinə davam etmiş və ilk olaraq Sənaye Nazirliyində nazir müavini, sonra isə Sənaye, Ticarət, Balıqçılıq və Rəqabətlilik Nazirliyində nazir kimi çalışmışdır.

2007-ci ilin sentyabr ayında Perunun Lima şəhərindəki Andean ölkələri üçün İşəgötürənlərin Fəaliyyətləri üzrə mütəxəssis kimi Beynəlxalq Əmək Təşkilatında (BƏT) fəaliyyətə başlamışdır. 2012-ci ilin oktyabr ayında Latın Amerika və Karibilər üçün Regional İşəgötürənlər Mütəxəssisi vəzifəsinə keçib. 2016-cı ilin may ayında İtalyanın Turin şəhərində BƏT-in Beynəlxalq Tədris Mərkəzində İşəgötürənlərin Fəaliyyət Proqramları üzrə Menecer kimi işə başlayıb.